

# Bu uşaq muğamı böyüklər kimi oxuyur

Muğam xalqımızın milli mənəvi sərvəti, tükənməz bir xəzinəsidir. Elə bir xəzinə ki, ondan istifadə olunduqca azalmır. Əksinə daha da artır və zənginləşir. Bu fikri söyləməyə əsas verən başlıca cəhət muğam ifaçılığından rişələnir. Çünki muğam ifa olunduqca onu sevənlərin də, öyrənənlərin də sayı getdikcə artır. Beləliklə də Azərbaycan musiqi sənəti tarixində geniş intişar tapan muğam xalq tərəfindən sevilir. Dövlətimiz tərəfindən də dəstəklənir. Bu mənada Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin muğam sənətinə və muğam ifaçılarına göstərdiyi qayğı və diqqət, eyni zamanda ölkəmizin Birinci vitse-prezidenti, UNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın muğam layihələri sanki 1-ci əsrdə muğam sənətinin yeni bir intibah dövrünü yaratdı. Əsası Ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan bir çox ənənələri onun varisləri layiqincə davam etdirirlər. Heydər Əliyev Fondunun prezidenti olaraq hörmətli Mehriban xanımın muğam layihələrini xüsusi qeyd etməliyik. "Qarabağ xanəndələri" albomu, "Muğam ensiklopediyası", "Muğam irs", "Muğam televiziya müsabiqələri" və s. Elə bu yerdə "Muğam televiziya müsabiqələri" üzərində dayanaq. Çünki həmsöhbətimiz məhz 2022-ci il 9-cu muğam televiziya müsabiqəsinin qalibidir. Azyaşlılar içərisində birinci yerə layiq görülən 14 yaşlı Həzrət Əzizli.

Açığını deyim ki, hər dəfə bu balaca oğlanın çıxışı bir neçə mənada məni heyran edib. Onun səhnədə özünü ağayana aparması, düz-



gün tələffüzü, aydın nitqi və ən başlıcası səsindən düzgün istifadə qaydaları və muğamı hiss etmək qabiliyyəti. Bütün bunlar muğam ifaçısı üçün vacib amillərdir. Həzrətin bu qaydalara qismən doğru-dürüst riayət etməsi onun ilk növbədə istedadlı olmasından irəli gəlir. Amma onu da deməliyik ki, bu balaca oğlanda həm də böyük ürək var. Əgər belə olmasaydı bu uşaq muğamı böyüklər kimi oxumazdı. Onda böyüklərə xas olan bir cəhət də var ki, bu da Həzrətin öz üzərində zəhmət çəkərək çalışması və məsuliyyətliliyidir. Belə bilirəm ki, Həzrət bu keyfiyyətləri ilə öz həmyaşıdlarına da bir nümunədir.Yəqin ki, oxucularımız və Həzrətin həmyaşıdları onu bir az yaxından tanımaq istəyəcəklər. Odur ki, Həzrətlə söhbətimizdən bəzi məqamları qələmə alıram.

Həzrət Əzizli ilk musiqi təhsilini Bülbülcan adına musiqi məktəbində alıb. Müəllimi Siyavuş Səyyafoğlu ona bir neçə xalq mahnısı öyrədib. İlk oxuduğu Xan Şuşinskinin "Şuşanın dağları" və "Ay bəri bax" xalq mahnısı olub. Sonra 24 saylı11 illik uşaq musiqi məktəbində Arif İsmayıloğlundan dərs alıb. Burada bir qədər muğam avazlarını mənimsəyib.

Nəhayət, bu müqəddəs sənətə olan sevgi və bu sevgini duyan valideynləri Həzrəti Azərbaycan Milli Konservatoriyasının nəzdindəki İncəsənət Gimnaziyasına gətirirlər. Bu istedadlı oğlan artıq 3 ildir ki, orada təhsil alır. Müəllimi 2005-ci il Muğam Televiziya Müsabiqəsinin qaliblərindən olan Aytən Məhərrəmovadır. Bəli, budur Muğam Müsabiqəsinin nəticələri. Vaxtilə öyrənənlər bu gün özləri də öyrədirlər. Beləcə, Aytən xanım öyrəndiyi muğam bilgilərini balaca Həzrətə də öyrədir və o, böyük ürəklə oxuyur. Odur ki, müsabiqədə də 1-ci yer tutdu. Söhbətimiz əsnasında soruşdum ki, Həzrət müsabiqədə 1-ci yer tutmaq üçün çalışırdın, yoxsa verilən tapşırıqları layiqincə yerinə yetirmək üçün?




**İlk müəllimi Siyavuş Səyyafoğlu ilə**

Balaca oğlanın mükəmməl cavabı.

- Əslində müsabiqə mübarizə meydanıdır. Təbii ki, orada hər kəs qalib olmaq istəyir. Amma, başlıca cəhət oxumaqdır, yaxşı oxumaq. Bunun üçün də çoxlu çalışmaq lazımdır. Axı, müsabiqədə oxumaq üçün səsdən başqa qəzəlləri də öyrənməlisən. O qədər öyrənirdim ki, bəzən gecələr yatanda yuxuda qəzəlləri sayıqlayırdım. Daim öyrənmək mənim üçün hər şeydən vacibdir.



**Həzrət, Xalq artisti Mənsum İbrahimov, müəllimi Aytən Məhərrəmova ilə**



**Sual: Həzrət, musiqidən başqa nəyə maraq göstərirsən?**

- Hələ ki, heç nəyə. Sadəcə orta məktəb dərslərim və musiqi-muğam. Elə bilirəm ki, muğam oxumadığım gün nəsə itirmişəm. Gələcəkdə də yaxşı muğam ifaçısı olmaq istəyirəm.

**Sual: Həzrət, hansı muğamı daha çox sevirsən?**

- Əlbəttə, muğamların hamısını çox sevirəm. Amma, nədənsə, "Bayatı-Şiraz" muğamı daha çox ruhumu oxşayır. Bəlkə də lap uşaq ikən yəni 7-8 yaşımda xanəndə Tacir Şahmalıoğlunun ifasında bu muğamı eşidib və o cür oxumağa çalışırdım. Bir də ki, Tacir müəllimin ifasını tez-tez televiziyada eşidəndə doğma Qarabağımızın təbiəti də göstərilirdi. Onda bu muğamı daha çox sevdim. Gözümün önündə Qarabağ – Şuşa canlanırdı.

**Sual: Həzrət, gözünün önündə canlanan Şuşaya getmək, oranı görmək sənə nəsib oldu. O zaman hansı hisləri keçirdin?**

- Çox qürurlu hislər yaşadım. Mən 3 dəfə Şuşada olmuşam. Hər dəfə də birincidə olduğu kimi xoş hislər yaşamışam. İlk dəfə 1920-ci ildə doğma Şuşamız işğaldan azad olunduqdan bir neçə vaxt sonra Cəlal Qurbanovun "Mənim atam qəhrəmandır" layihəsi çərçivəsində Şuşada şəhid ailələri və övladları ilə görüşdə iştirak etmişəm. Sonra "Şuşa ili" çərçivəsində tədbirdə və nəhayət 5-6 avqust 2022-ci il. 9-cu Muğam müsabiqəsinin finalı və qala konsertində Şuşada oldum. O qədər sevincli idim ki. Xüsusən elan olunanda ki, birinci yer tutmuşam. O hislərimi sözlə deyə bilmirəm. Belə xoş hislərə görə valideynlərimə və müəllimlərimə çox minnətdaram. Onların mənim üzərimdə zəhmətləri çoxdur. Çalışıram və daim çalışacam ki, onların əziyyəti yerdə qalmasın. Bizə yaranan şərait üçün Dövlətimizə, möhtərəm Prezidentimizə və hörmətli Mehriban xanıma da çox-çox minnətdaram. Məhz onların qayğısı sayəsində bizim istedadımız üzə çıxır.

**Sual: Həzrət, gələcəyə hansı niyyətlə gedirsən?**

- Layiqli vətəndaş və yaxşı ifaçı olmaq niyyəti ilə. Arzu edirəm ki, muğamlarımızı dünyanın ən mötəbər konsert salonlarında oxuyum. Bununla vətənimə də uğur gətirim.

Əziz oxucular, bu balaca oğlan hələ balaca yaşında neçə-neçə uğurlara nail olub. Gürcüstanda, Avstriyada böyük səhnələrdə çıxışlar edib, 30-a qədər diplom və mükafatlara layiq görülüb. Bu tarixi sənədlər balaca Həzrətin böyük uğurlarından soraq verir.






Əlbəttə, bunlar yalnız Həzrətin deyil, Azərbaycan musiqi mədəniyyəti tarixinin də uğurlarıdır. 14 yaşında belə uğurlar qazanan Həzrət Əzizliyə daha böyük uğurlar, uğurlar, uğurlar!

Beləcə, bir istedadlı məktəblini də bir az yaxından tanıdıq. Qoy Həzrətin yaşıdları da belə zəhmətkeş, fədakar və məsuliyyətli olmağa çalışsınlar. Onunla söhbətdən çox məmnun oldum. Oxusu kimi fikirləri də məntiqli idi. Sanki yaşından böyük düşüncələri, fikrini aydın ifadə etmək qabiliyyəti onun muğamı duymaq və onu uşaq yaşında böyüklər kimi oxumaq bacarığından irəli gəlir.

**Səadət TƏHMİRAZQIZI**

# Afərin, gənc istedadlar!

